# Regionda söz sahibi Azərbaycandır

"Mayın 10-da xalqımız daha bir tarixi gün yaşadı. Dövlət başçısının 2020-ci il noyabrın 8-də Şuşaya və bütöv Qarabağa həyatın qayıdacağı barədə xalqa verdiyi müjdə sözün bütün mənalarında reallaşıb. Əzəli sakinləri-ni qarşılayan şəhər 32 ildən sonra yenə canlandı. Şuşaya qayıdan ilk sakinlərə mənzillərinin açarlarının təqdim edilməsi mərasimində və "Xarıbülbül" VII Beynəlxalq Musiqi Festivalında çıxışı zamanı Prezident İlham Əliyev Azərbaycan xalqının sülh sevdasını bütün dünyaya bir daha bəyan etdi".



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Müşfiq Cəfərov dedi. Deputat bildirdi ki, Qarabağın incisi, Azərbaycan xalqının qürür yeri olan Şuşanın işğaldan azad edilməsi Vətən müharibəsinin əsas hərbi uğurlarından biri idi: "Şuşalılarla görüşü zamanı Prezidentin də qeyd etdiyi kimi, biz gənc nəsillərlə fəxr edirik ki, onlar 30 illik həsrətə son qoydular. Şuşa uğrunda döyüşənlərin əksəriyyəti bu torpaqları görməyən gənclər idi. Onlar vətənpərvərlik ruhunda böyüdüklərindən canlarını torpaqlarımızın azadlığı üçün sevə - sevə sipər etdilər. Beləliklə, 44 günlük müharibə beynəlxalq aləmdə xalqımıza qarşı münasibəti də dəyişdi. Bu gün qlobal arenada Azərbaycan əsgərinin qəhrəmanlığı və şücaəti dillər əzbəridir. Şükürlər olsun ki, xalqımız haqqında yayılmış mənfi mifləri yerlə yeksan etdi".

Deputatın sözlərinə görə, ermənilər uydurduqları miflərə həm özlərini, həm də beynəlxalq ictimaiyyəti o qədər inandırmışdılar ki, sanki Azərbaycan torpaqlarını əbədi işğal altında saxlaya biləcəklərinə əmin idilər. Onlara havadarlıq edən dövlətlər də ermənilərin bu xam xəyallarını gücləndirir, onları daha da arxayınlaşdırırdılar. Lakin unudurdular ki, Azərbaycan bu işğalla heç zaman barışa bilməzdi.

Dedutat dedi: "Dövlətimiz münaqişənin danışıqlar yolu ilə həllində maraqlı idi. Lakin ermənilər bunu anlamaq istəmirdilər. Ermənistanda torpaqlarımızı azad edə bilməyəcəyimiz haqda xam xəyallar formalaşmışdı. Fəaliyyətsizliyi ilə ad çıxarmış keçmiş Minsk qrupu münaqəşinin qalmasında, məsələnin dondurulmasında maraqlı idi. Dövlət başçısı da şuşalılarla görüşdə buna münasibət bildirdi. Minsk qrupunun 28 ildəki fəaliyyəti Azərbaycan xalqına qarşı yönəldilmişdi. Onların yalançı vədləri və fəaliyyətsizliyi təsadüfi deyildi. Onlar məsələni həll etmək istəmirdilər. Onlar bu torpaqları ermənilərə vəd vermişdilər", - deyən Prezident, eyni zamanda Ermənistanı silahlandıranlara da xəbərdarlıq etdi".

Müşfiq Cəfərov vurğulayıb ki, hazırda regionda söz sahibi Azərbaycandır: "Artıq Cənubi Qafqazla bağlı addım atmaq istəyən istənilən qüvvə bizimlə hesablaşmağa məcburdur. Nəzərə almaq lazımdır ki, Qafqazda siyasi-iqtisadi, hərbi və digər cəhətlərdən aparıcı dövlət məhz Azərbaycandır. Bu gün Azərbaycandakı həmrəylik sayəsində Qarabağ və Şərqi Zəngəzur, eləcə də Şuşa üçün yeni tarix yazılıb".

Deputat yekunda onu da deyib ki, şuşalıların doğma şəhərlərinə köçünün məhz 10 mayda - Ulu Öndərin doğum günündə reallaşması təsadüf deyil: "Axı Heydər Əliyevin də ən böyük arzusu məcburi köçkünlərin doğma yurdlarına qayıdışı idi".

***N.QAFARZADƏ,***
***"Azərbaycan"***

/Azərbaycan.- 2024.- 14 may, № 99.- S.7.